**Əşrəf Fəxri**
Şair

# Qəmindən, ey ahu gözlü, yolunda bəs qədər durdum

***(nəzirə)***

*"Ko'ngul jon birla bordi  hamrahing, men dardila turdum,*
*Sanga jon birla ko'nglumni, seniTengriga topshurdum".*
***Əmir Əlişir Nəvai***

Qəmindən, ey ahu gözlü, yolunda bəs qədər durdum,
Ki sandım burda xəlq oldum, budur axır-əzəl yurdum.

Süpürdüm yollarından düzdüyüm cismü dilü canı,
Yığıb bu çör-çöpü bir atəşin ah ilə yandırdım.

Başım açdım, yaxam cırdım, yürdüm, diyar-diyar gəzdim,
Səni hər səsə boylandımu, hər kölgədən sordum.

Yanan tənlə yatan bəxtim gözün gün tək qamaşdırdım,
Onu bir hicr şamı vəsl sübhiyçün oyandırdım.

Qiyamət səhnidir, ey dil, qəddi sərvim qiyam etmiş,
Əlimdən tut ki, bir ömrü səninlə durdum-oturdum.

Bir anda, Fəxri, yüz cür gövhəri-gənci-nihan gördüm
Nəvaivü Füzuli bəhrinə ol dəm ki, baş vurdum.

***2020***